# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏKİ ÇAYLARIN SU EHTİYATLARINDAN VƏ HİDROENERGETİK POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ

**Şamil Quliyev**

*"Meliorasiya Elmi-Tədqiqat İnstitutu" MMC, shamilxazar@gmail.com*

İşğaldan azad olunmuş ərazilərdəki çayların su ehtiyatlarının və hidrenergetik potensialının kəmiyyət və keyfiyyət qiymətləndirilməsi yerinə yetirilmiş və bu ehtiyatlardan səmərəli istifadə yolları göstərilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı və uzunmüddətli quruculuq işləri su təsərrüfatı sahəsini də əhatə edir. İlkin tədqiqat nəticələri göstərir ki, işğalçılar tərəfindən su təsərrüfatı obyektləri dağıdılmış, çaylar üzərindəki hidrotexniki qurğular sökülərək digər məqsədlər üçün istifadə olunmuş və çay ekologiyasına ciddi ziyan vurulmuş, çayların su ehtiyatları kəmiyyət və keyfiyyət baxımından ciddi dəyişikliklərə məruz qalmışdır.

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq, işğaldan azad olunmuş ərazilərdəki çaylara xüsusi diqqət yetirilməsi, onların ekologiyasının qorunması, təsərrüfat yararlılığının artırılması, ehtiyatlarından səmərəli istifadə edilməsi beynəlxalq təcrübəyə əsaslanan su siyasəti çərçivəsində yerinə yetirilməlidir.

İstər quruculuq işləri dövrü və istərsə də məskunlaşma zamanı ərazidəki çayların neqativ təsərrüfat fəaliyyəti təsirlərindən qorunmasını, onların su ehtiyatlarından və hidroenergetik potensialından hazırkı nəsillə yanaşı, gələcəkdə də səmərəli istifadəsini təmin edən kompleks tədbirlərin işlənib hazırlanması olduqca aktualdır. Araşdırmaların və su balansı metodu əsasında aparılmış hesabatların nəticələrinə görə, işğaldan azad olunmuş ərazilərdə illik axın həcmi 3 mln m$^3$ və ondan çox olan çayların sayının 15 ədəd olduğu müəyyən edilmişdir.

Hidroqrafik şəbəkə olaraq bu çaylar iki qrupa bölünür: Kür çayının sağ qolları (İncəçay, Tərtərçay, Xaçınçay, Qarqarçay və Xonaşençay) və Araz çayının sol qolları (Bəsitçay, Oxçuçay, Həkəriçay, İncəçay, Çaylaqçay, Çaxmaqçay, Qozluçay, Çərəkançay, Quruçay və Köndələnçay).

İşğaldan azad olunmuş ərazilərdəki çayların ümumiləşdirilmiş su ehtiyatları aşağıdakı kimi qiymətləndirilmişdir:

Kürün sağ qollarının ümumi çay su ehtiyatları tam olaraq yerli axınlardan ibarətdir və $1048{,}7 \cdot 10^6$ m$^3$/il təşkil edir. Arazın sol qollarının ümumi çay su ehtiyatları həcmi $1737{,}8 \cdot 10^6$ m$^3$/il olub, onun $966{,}26 \cdot 10^6$ m$^3$-i tranzit, $771{,}25 \cdot 10^6$ m$^3$-i isə yerli axından ibarətdir. Su ehtiyatları böyük olan çaylar Həkəriçay ($1171 \cdot 10^6$ m$^3$), Tərtərçay ($728{,}5 \cdot 10^6$ m$^3$) və Oxçuçaydır ($406 \cdot 10^6$ m$^3$). Su ehtiyatları az olan çaylar Çaxmaqçay ($3{,}15 \cdot 10^6$ m$^3$), Çərəkançay ($4{,}42 \cdot 10^6$ m$^3$) və Qozluçaydır ($5{,}36 \cdot 10^6$ m$^3$). İşğaldan azad olunmuş ərazilərin ümumi çay su ehtiyatları həcmi $2786{,}5 \cdot 10^6$ m$^3$ olub, onun $966{,}26 \cdot 10^6$ m$^3$-i tranzit, $1820 \cdot 10^6$ m$^3$-i isə yerli axından ibarətdir. Tranzit axınlı çayların tranzit axın həcmləri aşağıdakı kimidir: Bəsitçay - $33{,}11 \cdot 10^6$ m$^3$, Oxçuçay - $299{,}25 \cdot 10^6$ m$^3$ və Həkəriçay - $633{,}9 \cdot 10^6$ m$^3$. İşğaldan azad olunmuş ərazilərin çaylarının tam hidroenergetik potensialı ümumi ərazi üzrə 733,6 Mvt, Kür çayı hövzəsi çayları üzrə 388,5 Mvt və Araz çayı hövzəsi çayları üzrə isə 345,1 Mvt hesablanmışdır.

Hesablanmış hidroenergetik potensialın texniki cəhətdən istifadəsi mümkün olan qiymətləri isə uyğun olaraq aşağıdakı kimidir: ümumi ərazi üzrə 352,9 Mvt, Kür çayı hövzəsi çayları üzrə 180,5 Mvt və Araz çayı hövzəsi çayları üzrə isə 172,4 Mvt.

İşğaldan azad olunmuş ərazilərdəki çayların su ehtiyatlarından və hidroenergetik potensialından səmərəli istifadə üzrə təkliflər:

1. İşğal müddətində su təsərrüfatı obyektlərində, çay sistemlərində formalaşmış ekoloji və hidroloji vəziyyətin hərtərəfli tədqiqatlarla öyrənilməsi və alınmış nəticələr nəzərə alınmaqla prioritet istiqamətlər üzrə su təsərrüfatı fəaliyyətlərinə başlanılması;

2. Bütün su təsərrüfatı tədbirləri üzrə layihə qərarlarında hövzə prinsipi əsas götürülməklə çayların ekoloji vəziyyətinin yaxşılaşdırılması, onların su ehtiyatlarının kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi və bu ehtiyatlarından gələcək nəsillərin səmərəli istifadəsi üçün təminat verən qərarların qəbulu;

3. Əsas çaylar üzərində axının nizamlanmasını və müxtəlif təsərrüfat sahələri üzrə çoxtəyinatlı istifadəni təmin edən su anbarlarının tikilməsi;

4. Həkəriçayın və Tərtərçayın suyunun içməli su baxımından təmizliyini və yüksək keyfiyyətini nəzərə alaraq, bu çaylar üzərində içməli su təyinatlı su anbarlarının tikilməsi;

5. Şuşa şəhərinin dayanıqlı və etibarlı su təchizatı məqsədilə Qarqarçayın Zarıslıçay qolunun Daşaltı dərəsi ərazisində su anbarının yaradılması.

6. İşğaldan azad olunmuş ərazilərdə su təminatında suyun nəqlinin torpaq və beton kanallarla müqayisədə əhəmiyyətli üstünlükləri ilə seçilən təzyiqli axın rejimli boru kəmərləri ilə həyata keçirilməsi.